# XI - Qaravelliler

## İsfahan Keçeli

Biri var idi, biri yox idi, bir qarı var idi. Bu qa~ nnın da bir keçel oğlu var idi. Bunların dörd toyuğu, bir eşşeyi, bir de smıq bir cehreleri[1] var idi.

Bir gün Keçel dedi:

- Ana, burada korluq çekirik[2], gelsene İs fahan'a köçek?

Anası dedi:

- Ay keçel, İsfahan'da ele lotular[3] var ki, seni kişmiş yerine ciblerine doldurub y ey er ler. Orada biz baş ÇDcardabilmerik, yerinde rahat otur.

Keçel dedi:

- Ana, sen razı ol, köçek. Men İsfahan lotularma bir toy tutum[4] ki, sesi aleme yayılsın.

Qarı razı oldu. Dörd toyuğu, bir de smıq cehreni eşşeye yükleyib İsfahan'a köçdüler. Bir gün qarı dedi:

- Ay oğul, öz yerimizde hamı bizi tanıyırdı, yene bize qonum-qonşu kömek eleyirdi, dolanırdıq[5]. İndi burada kim bize el tutacaq? Apar toyuqlan sat, çörek al getir yeyek, görek axırımız ne olacaq.

Keçel toyuqları götürüb bazara apardı. Keçel ele tezece bazara çatmışdı, darğa geldi onun yanma:

- Keçel, toyuqları neçeye deyirsen?

Keçel dedi:

- Dördü elli tümen.

Darğa toyuqları götürdü.

Keçel pul isteyende darğa bir şapalaq da onun üzüne vurub yola düşdü. Keçel heç bir söz demeyib, xelvetce[6] onun dalınca[7] yola düzeldi. Darğa düz evine getdi. Keçel de qapıda durub onu pusdu. Darğa toyuqları arvadma verdi. Arvadı dedi:

- A kişi, bunlar ne yaxşı kök[8] toyuxdu, neçeye aldın?

Darğa dedi:

- Bir şaplağa. Bunları bişir, qonaqlarım bağa gelecek. Men gedirem. Keçel nökerimi[9] göndereyeceyem, ne istese ver, qonaqlar üçün getirsin.

Darğa bunu deyib getdi.

Keçel darğanın dediklerini eşidirdi. Gözlerdi darğa getdi. Bir az keçdi, keçel darğanın evine girib dedi:

- Xanım meni ağa gönderib. Ağam iki xalı, iki gebe[10], iki de xalca[n] isteyir bağa salmağa, qonaqlar gelecek.

Xanım keçelin dediklerini verib ycla saldı. Keçel gebeleri götürüb öz evlerine getdi. Anası dedi:

- Oğlum- bunları ne ile aldm?

- Toyuqlarm bahasına.

Keçel yene darğanın evine gedib gözledi, toyuqlar bişdi. Xanım dedi:

- Keçel, indi neye gelibsen?

Keçel dedi:

- Ağam dedi toyuqları versin.

Xanım toyuqları bir qaba qoyub, üstüne de örtük çekib, keçele verdi. Keçel toyuqları götürüb evlerine geldi. Anası dedi:

- Ay oğul, bunları ne ile aldın?

- Ay ana, bunları da toyuqlarm bahasına. Gel otur yeyek.

Oturdular, ana bala toyuqları şirin şirin yediler. O terefden darğa keçel nökerini gönderdi ki, get xalı gebeni getir, bağı döşeyek, qonaqlar gelecek.

1. kırık Bir iplik çıkrığı 2. köreldik 3. serseriler, avareler 4. oyun etmek 3. geçihSîrîk b. sessizce TTarSmca ».iri 9. uşak 10. yolluk 11. halı

Keçel nöker gelib dedi:

- Xanım, meni ağa gönderib, xalıları, gebeleri, toyuqları ver aparım, qonaqlar gelir.

Xanım dedi:

-Ay keçel, meni ele salıbsan[1], nedi? Bir az bundan qabaq gelib aparmadm? Keçel dedi:

- Ay xanım, ne deyirsen?

Xanım başını qaldınb gördü ki, bu lap noxudu keçeldi, dedi:

- Get ağana söyle ki, bir keçel geldi, senin adını verdi, xalılan, gebeleri, toyuqları apardı.

Nöker ağasının yanına gelib nedi:

- Xanım deyir, bayaq bir keçel geldi, gebeleri, xalıları, toyuqları apardı.

Darğa bildi ki, bu keçel toyuq yiyesü keçeldi. Onun dalma düşdü, soraq eleye eleye gelib evlerini tapdı. Keçel uzaqdan darğanı görüb ölen bacısının paltarını geyindi, heyete çıxdı, başladı dörd bir yanı süpürmeye. Darğa gördü bir qız heyet süpürür dedi:

- Ay qız kimsen?

Keçel dedi:

- Çarının qızıyam.

Darğa dedi:

- Mene gelersen mi?

Keçel dedi:

- Gelerem, eğer alsan.

Darğa qız paltarı geymiş keçeli götürüb evine apardı. Axşam oldu, yediler, içdiler, sohbete başladılar. Keçel darğanın evine göz gezdirib gördü, evde mengene var, dedi:

- Darğa, o nedi?

Darğa dedi:

- Bu mengenedi. Men seherde oğru[3] dutanda buna sahb tenbeh[4] eleyirem.

Keçel qalxdı, mengeneye girib dedi:

- Bur görüm, ne eleyir?

Darğa mengeneni bir az burdu.

Keçel dedi:

- Ay, qabırğalarım qınldı, aç.

Darğa tez mengeneni açdı, keçel çıxıb dedi:

- İndi de sen gir, men burum.

Darğa dedi:

- Gözle ha, berk burma, qabırğalanmı qırarsan.

Keçel dedi:

- Qorxma, berk burmaram.

Darğa mengeneye girdi. Keçel mengeneni ele burdu ki, darğanın qabırğaları birbirine keçdi. Darğa dedi:

- Ay qız, öldüm aç!

Keçel dedi:

- Ne qız, toyuqları zorla alabilerdin mi? Mene şapalaq vurardın mı?

Darğa baxıb gördü qız ne gezir, bu hemin keçeldi, dedi:

- Ay keçel meni öldürme, atam sene qurban, her ne isteyirsen verim.

Keçel qulaq asmadı. Mengeneni daha da berk burdu. Darğanın sesi kesildi.

Darğanın kim terefinden mengeneye saİmdığından heç kesin xeberi olmadı.

## Kerem ve Şeyx

Bir şeyx özüne bir bendergahda[5] ev düzeldib içinde ibadet eleyirdi. Avam camaat onun yemeyini, içmeyini başından sel kimi tökürdü. Şeyx adam içine çıxmırdı. Güya hemişe Allah'la danışırdı.

Bir gün Kerem adlı bir oğlan bîkef gedirdi, qabağma bir quleybanı[6] çıxıb ondan şoruşdu:

-Ay Kerem qardaş, niye bele bîkefsen? Ne olub? Yoxsa körpüde qoyununu bölübler?

Kerem dedi:

- Meni yaxşı adam tapmaz ha... Ancaq deli quleybanılar tapırlar. Sene qalıb?[7] Çıxıb getsene işine -gücüne.

Quleybanı dedi:

- Sen derdini de, men çaresini deyim.

Kerem dedi:

- Le'net sene şeytan! Eşi, el çeksene yaxamdan!

- Le'net özüne! Derdini de, çare elemesem, vur meni öldür.

- Bele men şeyxin yanma girmek isteyirem ki, onu görem. Çare eleyebilersen?

- He, bele de!... Yaxşı, men seni dönderib elerem milçek[8], gedib şeyxin evine girersen, doyunca baxarsan.

-Sen kimsen ki, meni milçek eleyesen? Men ele salması[9] adam deyilem ha! Men özüm adam axtarıram ele salam.

- Ele salmağın özüne qalsm. Sözüme qulaq as. Men şeytanam, seni milçek eleyirem, get tamaşa ele, sonra gelersen danışaruj.

Şeytan, Kerem'i milçek eledi. Kerem uçub şeyxin evine girdi. Gördü ki, destgah[10] var. Burada bir deste qız var, birbirinden gözel, hamisi da şeyxin qulluğunda. Kimi onun ayağını yuyur, kimi saqqalını darayır, kimi üzünü yelpikleyir. Kerem geceni gözledi, gördü, budu ha, evin dal qapısı[11] açıldı. Lotular bir deste de qız getirdiler.Lotular qarışdı qızlara, şeyx qanşdı lotulara, me'reke[12] başlandı ki, gel göresen. Hamı başladı çırtıq vurub oynamağa... Sehere kimi oynayıb, kef çekdiler. Seher yene lotularla qızlar çekilib getdiler, qulqaravaşlar[13], bir de şeyx qaldı. Kerem milçek donunda uçub şeytanın yanma geldi.

Şeytan dedi:

1. benimle alay mı ediyorsun 2. sahibi 3. hırsız 4. cezalandırırım 5. liman 6. hortlak 7. sana mı düştü 8. sinek 9. alay edilecek 10. tantana 11. arka kapısı 12. gürültü, patırtı 13. hizmetçiler, uşaklar

- Şeyxi gördün?

Kerem dedi:

- Sen şeyxi deyirsen, men onun hurilerini, qılmanlannı da gördüm.

Şeytan gülüb dedi:

- Bu da senin şeyxin.

Kerem sehere getdi, bir deste adam götürdü. Şeyx lotularla kefe baxan zaman içeri girdiler, hamisini tutub cezalarma çatdırdılar.

## Oğru Molla

Bir seherde acgöz bir molla yaşayırdı. Mollanın seherin qırağmda[1] bir qoruğu var idi ki, ucu bucağı görünmürdü. Bir gün molla qoruğun qırağında dayanarken Semender adlı bir kişi onun yanma gelib dedi:

- Ay molla, bir boğaz ineyim var, ya bu gün, ya da sabah doğacaq. Qoy onu getirim, qoruğun qırağında otlasın.

Molla dedi:

-Razıyam, getir hasarm içine sal, doğandan sonra apararsan.

Semender ondan razılıq eleyib dedi:

- Allah sene kömek olsun, molla.

Semender tez evine getdi, arvadma dedi:

- Ay arvad, molla dedi ki, ineyi getir qoruğa burax, dağanacan otlasm.

Arvad dedi:

- A kişi sözüm yoxdu, ancaq tez tez get bax, yoxsa molla oğurladıb eleyer[2].

- Arvad, günah elleme, molla da oğurluq eler mi?

Semender ineyi peyeden[3] çıxardıb mollanın qoruğuna saldı. Deme, ineyin vaxdı imiş. Kişi gedenden bir saat sonra inek doğdu. Molla o saat ineyi hasardan çıxardıb apardı. Mollanın arvadı bayıra[4] çıxıb gördü ki, eri yanı buzovlu bir inek getirir. O, kişisinden xeber aldı:

- A kişi, bu ineyi sene kim verib?

- Arvad, Allah yetirib.

- Onda çek içeri.

Gün batanda Semender kişi mollanın qoruğuna getdi ki, ineyim getirsin. Ora inek, bura inek, ineyi tapmadı ki, tapmadı. Axırda mollanın evine getdi ki, ondan soruşsun?

Gördü molla namaz qılır. Gözledi molla namazım qılıb qurtardı. Semender ondan soruşdu:

- Ay molla, baş ağrısı verirem, inek qoruqda yoxdur. Bilinirsen nece olub? Belke görüb-elemiş olasan.

Molla acıqlı acıqlı[5] dedi:

-Levend[6] oğlu levend, men sene inek otaracaqdım? Ne bilim nece oldu.

Semender bir söz demeyib qayıtdı[7].

Semender axşama kimi mollanın evinin hendeverinde[8] dolandı. Axşam olcaq bir de gördü mollanın arvadı qapıda ineyi sağır. Kişi ineyi gören kimi Onun yanına yüyürdü.

Molla evden bayıra çıxıb:

- A kişi, ne isteyirsen? deye soruşdu.

Semender dedi:

- Ay molla, bu inek menimdi.

- Yox, menimdi.

- Sen oxuduğun Qur'an, qıldığın namaz ineyi ver!

- Estağfurullah... İnek menimdi!

O dedi menimdi, bu dedi menimdi, Semenderle mollanın davası düşdü. Molla onun yaxasmdan çekib dedi:

- İndi ki, beledi, gedek qazıya şer'imizi deyek.

Onlar qazmm yanma getdiler. Qazı xeber aldı:

- Ne şikayetiniz var?

Semender dedi:

- Menim ineyimi molla oğurlayıb, vermir.

Molla dillendi:

- Yalan deyir, ineyi öz qoruq yerim doğub.

Qazı mollanın gözünün içene baxdı. Onun na mını vermeyib dedi:

- Molla, bir emelli danış[9], görüm iş ne yerdedi?

Molla danışdı:

- Menim qoruq yerim var. Seher durub qoruğa getdim, gördüm ki, qoruq yerimin içinde bir inek var, balası da yanında.

Qazı dedi:

- Molla, qoruq yerinin her teref i hasarlıdı mı?

-Beli, dörd terefi de hasarlı, qapısı da qıfilhdn-ıo.

- Molla doğru deyir, şer'en inek ona çatır.

Semender ne qeder dedise ki, ineyi qoruğa mollanın icazesi ile[11] özüm salmışam, qazı onun sözüne fikir vermedi:

Axırda ağlaya ağlaya durub evlerine geldi, arvadma dedi:

- Qazı ineyi mollaya verdi.

- Ay aman, evimiz yıxıldı. Kişi bir hiyle iş letmek lâzımdı.

Arvad bir besdinin[12] içini peyinle doldurdu, üstüne de azca yağ qoyub dedi:

-Kişi, bunu aparıb qazıya verib deyersen ki, qazı ağa, menim ineyimi molladan al, özüme ver, Qazı yağı yeyende ağzına peyin gedecek. Onda sene deyecek bu nedi, bu yağ deyil, peyindi, sen onda ona cavab ver, yeqin yağ dönüb peyin olub.

Kişi onun sözünü kesib dedi:

- Dalışını[13] özüm deyerem.

Semender bestini götürdü, qazınm yanma gedib dedi:

1. kenarında 2. çalar-malar 3. ahırdan 4. dışarı S. öfkeli öfkeli 6. ayyaş, ahlaksız 7. döndü 8. çevresinde 9. akıllıca konuş 10. kilitli 11. izniyle 12. küçük küp 13. arkasını, gerisini

- Qazı ağa, buyur, bu besdinin altı baldı, üstü yağ. Menim ineyimi molladan al, özüme ver.

Qazı besdini ondan aldı, berk acmışdı. Besdinin ağzını açdı, çörek kesib batırdı yağa. Bir nece tikeden sonra yağla qarışıq ağzına peyin getdi, ağzı pis oldu. Qazı dedi:

- Bu nedi? Bu yağ deyil, peyindi. Atanı yandıracağam.

Kişi dedi:

- Atamı niye yandırırsan? Yeqin yağ dönüb peyin olub.

Qazı dedi:

- Levend oğlu levend, yağ da dönüb peyin olar?

Semender dedi:

- Qazı ağa, torpaq yanı balalı inek doğanda, yağ da peyin olar da.

Qazı barınağını dişledi. Özü özüne dedi: "Bu kişi meni bî-abır edecek"[1]

O saat mollanı çağırtdırıb dedi:

- İnek bu kişinindi, verersen aparar.

Kişi bu sözü eşiden kimi molladan qabaq gedib ineyi balası ile evine apardı. Tamahkar molla da qaldı yana yana.

## Qudurmuş Axund

Bir oğlanın gözünün ağı qarası birce toyuğu var idi. Toyuq cins toyuq idi, günde üç kere yumurtlayırdı. Oğlan bu yumurtaların ikisini satıb çöreye verirdi, birini de bişirib anası ile çöreye yavanlıq[2] eleyirdi. Günlerin bir günü axunda xeber çatdı ki, bes filan oğlanm bir toyuğu var, günde üç defe yumurtlayır. Her yumurtası da şamama[3] böyüklükde. Bu axund hem tamahkar, hem de zalimin biri idi. O, özlüyünde dedi: "Nece olur olsun, görek o toyuğu onun elinden alam". Axund adam gönderdi, oğlanı çağırtdırıb dedi:

- Oğlan, berk naxoşam[4], Qur'ana baxmışam, gösterir ki, gerek günde üç defe yumurtlayan toyuq etini yeyem. Eşitmişem sende günde üç defe yumutlayan toyuq var. Sen gel o tuyuğu mene ver. Evezinde[5] men de ism-i e'zem oxuyaram, Allah o dünyada seni behişte gönderer[6]. Oğlan dedi:

- Axund, behişt, cennet özüne qalsm. Mene öz toyuğum besdi?. Onun yumurtası ile dolanıram[8].

- Onda ele dua oxuyaram ki, seni cehennemin alovunun içine atarlar.

- Axund, cehenneme atma, ne eleyirsen ele, to yuğu veren deyilem.

Axund oğlanı ne qeder cehennemle, ejdaha ile, ifrite ile qorxutdusa da oğlan razı olmadı.

Axund özlüyünde[9] dedi: "Gerek toyuğu oğlandan oğurlayam. O toyuq menim olmalıdı".

Axund geceni saldı, durub yavaş yavaş oğlanın daxmasınm[10] yanma geldi. Oğlan dama çıxıb ayın doğmasını gözleyirdi ki, oduncularla meşeye, oduna getsin. Baxıb gördü ki, axund eyile eyile onların daxmasma teref gelir. Bildi ki, toyuğu oğurlamaq isteyir. Tez aşağı endi, eline bir saf ağaç alıb qapmın dalında gizlendi. Axund o yana bu yana baxdı, gördü adam yoxdu. Başmı qapıdan içeri salmaq isteyende oğlan onun tepesine ele bir ağaç vurdu ki, axundun başından qan fevvare verdi[11]. Oğlan bir iki ağacı da çekdi. Axund başından qan axa axa evine geldi, bir batman eski yandırıb yarasına basdı, yorgan döşeye girdi. Onun yanma dua yazdırmağa, kebin kesdirmeye[12] gelenlere dediler:

- Axund berk xestedi.

İşin üstünden bir müddet keçdi. Axundun başı yaxşı oldu. Toyuq onun yadından heç çıxmırdı. Günlerin bir günü yene oğlanı çağırıb dedi:

- Oğlan, toyuqdan el çekmişem, görürem zy-ek[13] oğlansan. Mene nöker[14] lazımdı. Gel mene nöker dayan. Sene oğlum kimi baxaram.

Oğlan dedi:

- Ay axund, qoy bu gece fikirleşim, sabah sene cavab deyerem.

Oğlan eve geldi. O günü toyuğun iki yumurtasını satıb çöreye verdi, bir yumurtasını da yavanlıq eleyib anası ile yedi, sonra anasına dedi:

- Ana, razı ol, gedim axunda nöker dayanım. Men bele dememişdim, görek onun başına oyun getirem.

Anası dedi:

- Ay bala, yerinde rahat otu, sen axunda heç zad eleyebilmezsen.

- Yox, dayanacağam.

Anası razı oldu. Beli, oğlan axunda nöker oldu.

Bir gün axund oğlana dedi:

- Oğlan, o toyuq senin neyine gerekdi. Yemek içmeyinizi ki men verirem. Getir toyuğu kesib plov altına qoyaq.

Oğlan dedi:

- Axund, toyuq sohbeti eleme. Ondan gözünü çek. O plov altına qoyulan toyuq deyil.

Günlerin bir günü oğlan bazara getmişdi. Axund bunu bilib, gizlince onlara getdi, toyuğu oğurlayıb evine apardı, ağla gelmeyen yerde gizletdi. O biri terefden oğlan eve gelib gördü, toyuq yoxdu. Anasına dedi:

- Ana, bura kim gelmişdi?

Anası dedi:

- Axund.

- Ana, axund toyuğu oğurlayıb.

Oğlan axundun yanma gedib dedi:

1. rezil edecek 2. katık 3. küçük kavun 4. çok hastayım 5. karşılığında 6. cennete gönderir 7. yeter 8. geçinirim
9. kendi kendine 10. kulübe ll.fışkırdı 12. nikah kıydırmaya 13. akıllı, becerikli 14. uşak

- Axund ağa, toyuğumu ver.

- Ne toyuq? Xeberim yoxdu.

Oğlan ne qeder dedi, yalvardı, axund boynundan atdı.

Oğlan sakit dayandı, ancaq göz-qulaqda oldu, bildi ki, axund toyuğu kesecek. Oğlan tez bazara çıxdı, o toyuğa oxşar bir toyuq aldı, getirib bir yerde gizletdi.

Axund arvadını çağırıb dedi:

- Arvad, tendirde günde üç defe yumurtlayan bir sehrli toyuq var. Ondan muğayat ol. Özün de men bazardan bir ayrı toyuq alıb getireyeceyem, onu kesib xörek hazırlarsan?

Oğlan bu sözü gizliden eşidende çox şad oldu. Tez tendirin basma getdi. Toyuğunu tendirden çıxartdı. Toyuqlarm ikisini de götürüb evlerine apardı.

O biri terefden axundun arvadı getdi ki, tendirdeki toyuğa baxsm. Tendirin ağzmı açdı, gördü toyuq zad yoxdu. Gün batan zaman axund gelib çıxdı.

Arvadı ona dedi:

- Tendirde toyuq zad yoxdu.

Axund dedi:

- Yeqin onu yene oğlan aparıb.

Axund oğlanı yanma çağırıb dedi:

-Oğlan, meni incitme, gel toyuğu ver mene. Qur'ana baxmışam, günde üç yumurta veren toyuq yumurtası menim derdime dermandı.

- Menim dediyimi elesen vererem.

- Söyle görüm, ne deyirsen.

-Tedarük gör. Gedim toyuğu getirim. Arvadm da bir plov bişirsin. Plovun altına qoysun.

Molla çox sad olub oğlana dedi:

-Her şey hazır olar, sen get toyuğu getir. Ancaq plovun başına qoymağa toyuğumuz var. Onu saxlayacağam.

Oğlan gedib bazardan aldığı toyuğu getirdi. Mollaya verdi? Arvad da qazan asdı, plovu bişirmeye başladı.

Gün batan zaman axundun arvadı plovu bişirib deme qoydu. Oğlan gedib bir nece adam çağırdı. Beli, mollanın arvadı aşı boş qablara çekib süfreye düzdü. Yemeye başladılar. Oğlan çox bic[1] idi, axund gic[2]. Oğlan axundu dile tutur, ele hey ona şerab içirirdi. Axund o qeder içdi ki, serxoş olub, xor-ha-xorla yatmağa başladı. O, ele berk yatmışdı ki, etini kesseydin, oyanmazdı. Adamlar dağılıb getdi. Oğlana da bu lazım idi. O, bir ülgüc[3], bir qayçı[4] götürüb edeb erkanla axundun saqqalmı, bıyığını qırxdı, özü de sandıqdan bir qeder pul götürüb getdi.

Beli, axund ertesi gün seher tezden ayağa qalxıb gerneşdi, arvadı ona baxdı, Pıqqıltı ile gülüb o biri eve keçdi. Axund acıqlandı. Elini saqqalma atdı ki, tumarlasm. Ne görse yaxşıdı? Gördü ki, saqqalı, bığı ter temiz qırxılıb. Axund iki eli başında bir nece qapaz[5] salıb başladı ağlamağa, dedi: "Ne cür olar olsun- gerek bu gece oğlanı ödürem".

Axşamı saldı, xencerden qılmcdan götürüb oğlanın evine getdi. Oğlan işi duymuşdu. Odur ki, qapını açıq qoydu, eline bir saz deyenek alıb qapının dalmda gizlendi. Axund içeri girmek isteyende oğlan düşdü axundun üstüne, vur ki vurasan. Axundla oğlan çığıra çığıra bayıra çucdılar. Ses küye adamlar töküldüler, gördüler ki, oğlan axundu budayır. Hem de gördüler ki, axundun saqqalı, bığı qırxıqdı. Oğlandan soruşdular:

- Bu ne ehvalatdı?

Oğlan dedi:

- Axund qudurub. Ay aman, tez öldürün, ha mını dalayacaq

Adamlar bu söze inandılar.

## Qazı

Qedim zamanlarda bir kişi var idi. Bu kişi çox kasıb[6] olub, çörek üzüne xesret qalmışdı. Bir gün arvadı ona dedi:

- A kişi, get bir adamdan borç pul al, yoxsa acından ölerik.

Kişi gedib bir tacirden altı aym müddetine selemle[7] yüz manat borç aldı. Ay dolandı, vaxt gelib çatdı, kişi pulu düzeldib verebilmedi.

Tacir onun evine gelib dedi:

- Pulumun vaxdı tamamdı, selemi ile bir yerde getir ver, yoxsa sene ağır oturar.

Kişi teveqqe[8] etdi:

- Mene üç gün möhlet ver, tapıb vererem.

Üç gün de keçdi, kişi pulu yene de düzeldebilmedi. Qaçıb gizlendi. Arvadına da tapşırdı ki, tacir gelse deyersen kişi evde yoxdu. Axşam tacir gelende arvad ele de dedi.

Tacir qayıdıb gedende kişi ile qabaq qabağa[9] geldi. Kişi taciri görende geri qayıdıb qaçmağa başladı. Tacir qovdu, o qaçdı, axırda bir qapıya rast gelib özünü içeri soxdu. Deme, ev sahibinin arvadı hamile imiş, özü de qapmm dalında durubmuş. Kişi qapını zerble[10] açanda qapı arvada deydi, arvad yere yıxılıb uşaq xerc eledi[11]. Arvadm eri ağacı götürüb kişini döymeye başladı. Tacir çatıb dedi:

- Döyme, öler, menim o kişide alacağım var, qoy alım, sonra ne eleyirsen ele.

Bu qerara geldiler ki, kişini qazmın yanma aparsmlar.

Qazı yeddi ağaclıqda olurdu. Onlar kişini götürüb qazmın yanma apararken qaranlığa düşdüler. Bir kendde gecelemeli oldular Tacir gedib bir neferin evinde qonaq qaldı. Borçlu kişiden qorxduqlarmdan onu evin ikinci mertebesine^ çı-

1. kurnaz 2. ahmak 3. ustura 4. makas 5. başım dövüp 6. fakir 7. faizle 8. ısrar, rica 9. karşı karşıya 10. darbesiyle, şiddetle 11. çocuk düşürdü 12. katına

xardıb özleri heyetde yatdılar. Kişi qaldı yuxan mertebede. Özlüyünde fikirleşdi: "Yaxşı, men tacire iki yüz manat borcluyam. Onu verebilmediyim halda ikinci bir işe rast geldim. Yeqin ki, sabah qazmın yanına getsem, meni taqsırlandıracaq[1]. Yaxşısı budu ki, ikinci mertebenin perceresinden özümü atım aşağı. Salamat qurtararam heç, eyer qurtarmaramsa, ölerem, canım qurtarar". Bu sözleri fikir eleyib pencereni açdı, özünü aşağı tulladı[2]. Demeginen ev sahibi qoca kişi pencerenin qabağında yatıbmış. Kişi bir baş qocanın üstüne düşdü. Qocanm o saat canı çıxdı. Oğlu sese oyanıb gördü ki, atası ölüb. Kişini dutdu, öldürmek isteyende o biriler dutdular, öldürmeye qoymayıb dediler:

- Canım, bunda bizim telebimiz var. Bizim de başımıza oyun açıb. Yaxşısı budu ki, sen de bizimle beraber gedek qazanın yanma. Şeriet ne hökm ederse, biz de ona qulaq asarıq.

Oğlan da razılaşdı, yola düşdüler.

Yolda gördüler ki, bir neferin eşşeyi batıb palçığa, ne qeder elleşir çıxardabilmir. Eşşek sahibi üzünü bunlara tutub dedi:

- Ay qardaşlar, siz Allah kömek eleyin, men bu ulağı palçıqdan çıxardım.

Heç kes getmedi. Taqsırkâr kişi özünü palçığa saldı. Eşşeyin quyruğundan dartdı ki, palçıqdan çıxartsın. Bedbextlikten[3] eşşeyin quyruğu dibinden qopdu. Eşşek sahibi onun abırını alıb[4] dedi:

- Menim eşşeyimin quyruğunu qopartmısan. Gerek haqqımı veresen.

Eşşeyin sahibi qır-saqqız olub, yapışdı kişinin yaxasmdan.

Adamlar bele razılaşdılar ki, bunu da qazınm yanma aparsmlar.

Bir az gedib bir böyük çayın qırağına çatdılar. Gördüler ki, bir qoca ile bir cavan balıq tuturlar. Bunlar buradan keçende bu bedbext kişi balıqçıya salam verdi. Kişi bütün fikrini çaya, balığa vermişdi, qefleten salam eşiden kimi diksinib[5] suya düşdü, çox qoca olduğuna göre çıxabilmeyib boğuldu. Oğlu tutdu taqsırkâr kişinin yaxasından:

- Menim atamın qan bahasını ver.

Mereke[6] başlananda dediler:

- Bu adam bizim de başımıza oyun açıb. Gel, sen de bizimle gedek qazmın yanına.

Elqerez[7], bunlar qazınm yanma getmekde olsunlar, kişi öz özüne fikir eleyirdi ki, men bir tacire borçlu olduğum üçün qorxurdum, indi bu qeder iş menim başıma geldi. Daha men qurtarabilmeyeceyem. Yaxşısı budu ki, men heyete çatan kimi qabağa düşüb qazıya yalvarım, belke taqsırımdan keçsin. Bu fikirnen tez özünü yetirdi qazınm qapısına, açıb gördü ki, qazı içeride bir arvadnan mazaqlaşır[8]. Utanıb tez qapmı örtdü, durdu qapının qabağmda. Adamlar içeri keçmek isteyende onları buraxmayıb dedi:

- Qazı ibadetle meşguldü. İçeri girmek olmaz.

Birazdan qazı özü gelib qapını açdı, onları içeri buraxıb soruşdu:

- Evvel qapmı açan kim idi?

Kişi dedi:

- Men idim.

Qazı ehtiramla dedi:

- Gel, evvel sen derdini de, görek ne üçün gelmisen?

Kişi bütün ehvalatı qazıya nağıl eleyib[9] yalvardı.

- Amandı, qazı ağa, rehm ele, kâsıb adamam. Kiçikden xeta, böyükden eta. Borcu verebilmirdim. Özümü öldürmek isteyirdim, bele oldu.

Qazı o biri adamları içeri çağırdı, onlar dediler:

- Qazı ağa, biz bundan şikayete gelmişik. Heresi başına gelen işleri danışib, kişiden şi kayet eledi.

Qazı tacire dedi:

- Bes sene bu kişi iki yüz manat borcludu. Şerietin buyruğuna göre gerek o qeder möhlet ve resen ki, qedib o pulu qazansm, getirib versin. Özün de şikayete geldiyine göre yüz manat ce rime[10] vermelisen.

Tacer nâ elaç[11] qalıb yüz manatı verib, bir terefde durdu.

Qazı ikinci adama dedi:

- Bu senin altı aylıq uşağım telef eleyib. Şerietin buyruğuna göre sen gerek arvadı boşayıb ve resen bir müddet bu kişide qala. Arvad hamile qalan zaman o yene arvadı sene qaytarar. Eğer razı olmasan yüz manat cerime vereceksen.

Kişi gördü ki, burada namusu elden gedir, nâelac qaldı, yüz manatı verib bir terefde durdu.

Üçüncü adamdan soruşdu:

- Bu kişi haradan senin atanın üstüne atılıb?

Üçüncü adam dedi:

- İkinci mertebeden.

Qazı dedi:

- Şerietin dediyine göre sen de çıxıb haman ucalujdan bunun üstüne atılmalısan. Eğer qebul elemesen gerek elli manat cerime veresen.

Oğlan gördü ki, o ucalıqdan atılsa qol-qıçı smıb ölecek. Elacsız qaldı, elli manatı verib bir terefde durdu.

Növbe balıqçı oğluna çatdı. Qazı soruşdu:

- Senin atanın ne qeder qanı olardı?

Oğlan dedi:

- Ne bilim, beş girvenke[12].

Qazı oğlanın eline bir bıçaq verib dedi:

- Şerite göre sen bunun harasından istesen beş girvenkelik qan götürebilesen. Amma hergâh[13] bir balaca artıq eskik olsa, bu kişi senin etinden ke secek.

Oğlan gördü ki, heç vaxt düz beş girvenkelik qan çıxardabilmeyecek. Nâelac qalıb, o biriler kimi cerimeni verib kenarda durdu.

Kenarda dayanmış eşşek sahibi işi bele görüb dedi:

- Menim eşşeyimin heç ezelden quyruğu yoxdu.

Qazı onların hamisini yola saldı. Gördü ki taq-

1. suçlu bulacak 2. attı 3. şanssızlıktan 4. şiddetle kınayarak 5. korkup, ürküp 6. gürültü, patırtı 7. sonuçta 8. cilveleşir 9. hikaveedip 10. ceza, tazminat 11. çaresiz 12. bir ağırlık ölçüsü 13. her ne zaman

sırkâr kişi getaıir.

- Sen ne üçün getmirsen? deye ondan soruşdu.

Kişi dedi:

- Hele şerikli pulumuz[1] var. Onu bölek, sonra gedim.

Qazı dedi:

- Canım, bu işlerin hamisini men senin üçün eledim. Seni ölümden qurtardım. Pul nedir?

Kişi dedi:

- Senin canın haqqı, pullan tamam yarı bölmeyince getmeyeceyem. Yoxsa çıxıb eşikde qışqıra qışqıra tutduğun emeli xeber vereceyem...

Qazı nâelac qaldı, abınna qısıhb, pulu kişi ile yan böldü.

## Mollanın Arvadı

Bir qoca molla var idi. Bir gün molla meclisden qayıdanda yolda bir gözel qız gördü. Bir neferden soruşdu:

- Ayıb olmasm soruşmaq, bu kimin qızıdı?

- Feruz tacirin qızıdı, deye ona cavab verdiler.

- Nece olmaya gözün düşüb?

- Xeyr, ele bele soruşuram. Göresen ismi nedi?

- Yasemen.

Molla: "Fetebarekellahü ehsenül-xaligin" deyib evine getdi.

Bir nece gün keçdi, molla Yasemen'in derdinden lap deli divane oldu. Axırda qazmı evine çağınb derdini ona söyledi.

Qazı dedi:

-Feruz tacir qızmı sene vermeyib kime verecek. Onu razı salmaq menim boynuma.

Yasemen'in Salman adında bir sevgilisi var idi. Onunla orada burada görüşür, derdleşirdi. Yasemen mollanın ona aşiq olduğunu Salman'a xeber verdi. Salman dedi:

- Yalan olar. Molla senin tayın[2] deyil ki, sene aşiq olsun. Ara sözüdü, yeqin kişiye şer atırlar[3].

- Teki sen deyen olsun.

Salman'm heç yuxusuna da gelmezdi ki, qoca molla Yasemen'e aşiq olsun. Axı Yasemen'in hele on yedi yaşı da yox idi.

Qazı ile molla çox fikir ediler, axırda qazı bir adam gönderib Feruz taciri çağırtdırdı. Feruz gelib salam kelamdan sonra onlarm yanında eyleşdi. Oradan buradan, şerietden zaddan sohbet eleyib, axırda metleb üstüne[4] geldiler.

Qazı dedi:

- Feruz bizim bu mollanı yaxşı tamyırsan. Bu memleketde bundan varlı adam yoxdu.

Feruz tacir dedi: , - Allah daha da qırtıq elesin. Qazı dedi:

- Sözüm odu ki, bele adamla qohum olmaq pis olmaz. Feruz tacir, molla isteyir sizinle qohum olsun.

Feruz tacir dedi:

- Qazı ağa, meslehet[5] sizindi, ancaq molla ağa çox qocadı.

- Qıza var dövlet lazımdı, o da mollada var. Qızı ver getsin. Nece deyenler, cahile geden yumruq yeyer, ahıla geden quyruq.

- Qız sizindi, çaya atsanız da sözüm olmaz. Ancaq qorhuram qız razı olmaya ki, molla çox qocadı.

- Bir cavan oğlan gösterib deyerik, bu mollanın oğludu, seni ona ere veririk.

- Meslehet sizindi.

- Onda get toya hazrrlaş,

Feruz tacir durub evine geldi, arvadma dedi:

- Qızı mollanın oğluna ere verirem, toya hazırlaş.

- A kişi, mollanın oğlu ne gezir?

- Var. Sene ne deyirem, elece de ele.

Beli, Feruzla arvadı toya hazırlaşırdılar. Bir hefte keçdi, qızı mollanın oğluna vermek adı ile toy elediler. Qız gelib gördü, onu ele mollanın özüne köçürmüşler. Çox çığır bağır eledi, sesi heç bir yana çatmadı. Molla bennaları[6] topladı, evinin etrafına uca barı[7] çekdirdi. Qefesde quş saxlayan kimi qızı burada saxlamağa başladı. Günlerin bir günü qız külafirengiye[8] çıxmışdı. Bir de gördü Salman barının dibi ile keçir. Qız göz yaşı ile bir nâme yazıb ona atdı. Salman nâmeni oxuyanda üreyi qana döndü. Ele hemin günün sabahı bir kenkan[9] çağırıb dedi:

- Kenkan, buradan mollanın evine nece günde lağım, atabilersen?

Kenkan dedi:

- Bir hefteye.

Salman ona çoxlu pul verdi, kenkan bir hefte erzinde yerin altı ile lağım atıb, qızın evinin içine çucdı. Bu günden molla mescide gelen kimi Salman lağımla gedib qızm evine çıxardı. Bir müddet qızla bele dolandılar.

Bir gün oğlan qıza dedi:

- Ne vaxta qeder bele dolanacağıq? Gedib mollanın özüne kebinimizi kesdirek[10], çıxıb evimize gedek.

Her ikisi razı oldular. Salman Yasemen'i götürdü, mescide, mollanın yanına gelib dedi:

- Molla, men bu arvadı alıram, kebinimizi kes.

Molla diqqetle arvadm üzüne baxıb gördü öz arvadıdı, oğlana dedi:

- Qelemdan evde qalıb, qoy gedim getirim.

Molla mescidden çıxan kimi arvad ondan qabaq eve çatdı. Molla gelib gördü arvadı evdedi. "Esteğfürüllah" deyib geri qayıtdı.

Yasemen de lağımla ondan qabaq mescide, Salman'ın yanma geldi. Molla baxıb gördü, arvadı buradadı. Diqqetle bir de arvadınm üzüne baxdı, gördü xeyr öz arvadı ki, durub.

1. ortak paramız 2. dengin 3. iftira ederler 4. asıl mevzuya 5. iş 6. ustaları 7.duvarı 8. kameriye 9. madenci 10. nikahımızı kıydıralım

Molla dedi:

- Bağışlayın, qelem yadımdan çıxıb evde qalıb. Qoyun gedim getirim.

Molla çıxan kimi arvad da lağımla ondan qabaq eve qaçdı. Molla gelib gördü, xeyr arvadı evdedi, yene geri qayıtdı. Arvadı da ondan qabaq lağımla Salman'm yanma geldi. Molla gelib gördü arvadı buradadı. Bele bele molla on defe geri qayıdıb arvadma baş çekdi. Axırda Yasemen'in kebinini Salman'a kesdi. Salman Yasemen'i götürüb evine apardı. Molla da durub evine getdi, gördü arvadı yoxdu. Axırda bildi ki, kebinini kesdiyi öz arvadı imiş. Gedib qazıya şikayet eledi. Qazı Salman'ı çağırdı. Salman kebin kağızını ona gösterdi.

Qazı baxıb gördü, kebini molla özü kesib. Axırda dedi:

- Molla, kebini özün kesmisen, odu ki, arvad şer'en Salman'a düşür.

Salman Yasemen'i götürüb evine getdi, Molla da qaldı başına döye/döye.

## Yoxsulun Arzusu

Keçmiş zamanlarda bir fağir kişi var idi. Bu kişinin yemeye çöreyi, geymeye paltarı[1] yox idi. Nece deyerler, andırandan[2] cin ürkürdü. Bu kişi paltarmm derdini yox, papaqsızlığının derdini çekirdi. O, bele qerara geldi ki, her gün Allah'a yalvarsm, belke ona bir papaq yetirdi. Odur ki, o, her gün divar dibinde eyleşir, ellerini göye qaldırıb deyirdi:

- Allah, sen mene bir papaq yetir.

Bir müddet bele gelib keçdi. Günlerin bir günü bir lotu[3] bu kişiden soruşdu .

- A kişi, her gün divarın dibinde ne dua eleyirsen?

Kişi cavab verdi:

- Qadan alım, başı açıq qalmışam, Allah'dan bir papaq isteyirem.

- Yaxşı eleyirsen, Allah'dan iste, nâümid ol mazsın.

Kişinin arzusu artdı. İndi günde iki defe divarın dibinde oturub dua eleyirdi.

Lotu arayıb axtardı, zibillikden[4] bir cırıg papaq tapdı. Gözledi, kişi divarm altına gelib dua eleyende, emdir papağı kişinin başına saldı. Kişi sevindiyinden atılıb düşdü ve ucadan dedi:

- Allah, sene çox şükür, mene papaq yetirdin.

Bir nece defe atılıb düşenden sonra papağı başından götürdü ki, görsün Allah ona ne cür papaq yetirib. Baxıb papağa ne gördü, zibilli, emdir bir papaqdı, itin üstüne atsan o da qaçar.

Kişinin Allah'a açığı tutdu[5], papağı qolu geldikçe tullayıb dedi:

- Men bele papağı istemirem. Apar öz basma qoy.

Kişi bu ehvalatdan sonra ne divarın dibine getdi, ne de dua eleyib Allah'dan papaq istedi.

1. elbisesi 2. yırtık 3. serseri 4. çöplükten 5. öfkelendi

X